# *Ahmet Nuri Yurdusev:*
# "Azərbaycan elmi regionun intellektual inkişafına mühüm töhfə verir"



**Azərbaycan və Türkiyə elmi qurumları arasındakı qardaşlıq ruhu təkcə ortaq tarix və mədəni bağlarla deyil, həm də elm və bilik sahəsindəki sarsılmaz əməkdaşlıqla möhkəmlənir. Xüsusilə qeyd etmək istərdim ki, Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) ASSA-ya üzv olduqdan sonra Assosiasiyanın fəaliyyətində fəal iştirak edir və türk dövlətləri arasında birgə elmi layihələrin həyata keçirilməsinə mühüm töhfələr verir. AMEA-nın 80 illik yubileyində iştirak etmək mənim üçün həm elmi, həm də mənəvi baxımdan çox dəyərli bir hadisədir. Azərbaycanda keçirilən elmi tədbirlərdə hər dəfə hiss etdiyim səmimiyyət, yüksək təşkilatçılıq və elmə dərin hörmət məni valeh edir. Bu gün AMEA ilə ASSA arasında əməkdaşlıq yeni ortaq təşəbbüslərə yol açır. Əminəm ki, bu birlik gələcəkdə regionun elmi və intellektual inkişafında mühüm rol oynayacaq.**

Bu sözləri Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyi münasibətilə ölkəmizdə səfərdə olan Asiya Elmlər Akademiyaları və Elmi Cəmiyyətləri Assosiasiyasının (ASSA) prezidenti professor Ahmet Nuri Yurdusev deyib.

ASSA-nın prezidenti kimi Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi münasibətilə bütün azərbaycanlı alimləri səmimi qəlbdən təbrik edib.

Bildirib ki, ASSA bu gün Asiyanın 30 ölkəsindən 33-dən çox elmlər akademiyasını birləşdirir. Uzaq Qərbdə Türkiyə Elm Akademiyası, Şərqdə Yaponiya Elm Şurası, Şimalda Rusiya Elmlər Akademiyası, həmçinin Avstraliya Elm Akademiyası və Yeni Zelandiyanın Kral Cəmiyyəti bizim üzvlər sırasındadır. Demək olar ki, Asiyanın bütün əsas ölkələrinin milli elmlər akademiyaları təşkilatımıza daxildir.

ASSA-nın fəal üzvlərindən biri kimi AMEA-nın inkişaf istiqamətlərinə nəzər saldıqda, bir neçə mühüm məqamı xüsusi vurğulamaq istəyirəm. Bildiyiniz kimi, elmlər akademiyaları XVII əsrdə yaranmağa başladı, lakin onların böyük əksəriyyəti XX əsrdə formalaşdı. Bu baxımdan, Azərbaycan elminin nisbətən erkən dövrdə - ötən əsrin ortalarında - belə bir institusional qurumu yaratmağa nail olması diqqətəlayiq hadisədir.

Azərbaycan Milli Elmlər Akademiyası elmi tədqiqatların təşkili, istiqamətləndirilməsi və koordinasiyası sahəsində ölkənin aparıcı elmi mərkəzidir. Əlbəttə, bundan əvvəl də Azərbaycanda müxtəlif alimlər məclisləri və elmi cəmiyyətlər fəaliyyət göstərirdi, lakin AMEA-nın fərqi onun bu elmi ənənələri davamlı və institusional şəkildə formalaşdırmasındadır.

Diqqətimi çəkən əsas məqam ondan ibarətdir ki, Azərbaycan Milli Elmlər Akademiyası son illərdə dünya elmi ictimaiyyətinin fəal iştirakçısına çevrilib.

Burada AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin rolunu xüsusi vurğulamaq istərdim. Bir neçə il əvvəl o mənə demişdi ki, əsas məqsədi Akademiyanı daha açıq etmək və onu qlobal elmi mühitə inteqrasiya etdirməkdir. Düşünürəm ki, o bu məqsədinə uğurla nail olub.

Hazırda AMEA dünyanın müxtəlif ölkələrinin elmlər akademiyaları ilə əməkdaşlıq proqramları, sazişlər və anlaşma memorandumları imzalayır, çoxşaxəli əlaqələr qurur. Son beş ildə AMEA bir sıra beynəlxalq və regional elmi təşkilatların fəal üzvünə çevrilib.

AMEA artıq təkcə ölkə daxilində elmi fəaliyyətin aparıcı qurumu deyil, həm də beynəlxalq elmi əməkdaşlığın fəal iştirakçısıdır. Bu, xüsusilə türk dünyasında elmin inteqrasiyası baxımından önəmli bir nümunədir.

Əminəm ki, burada təmsil olunan digər akademiyalar da öz tərəfdaşları ilə sıx əməkdaşlıq edərək beynəlxalq elmi forumlarda fəal iştirak edirlər. Lakin bu əlaqələri daha da genişləndirməliyik, çünki bu gün qarşılaşdığımız elmi və sosial problemlər sərhədləri aşır. Onların öhdəsindən yalnız birgə elmi əməkdaşlıq yolu ilə gəlmək mümkündür.